# III. "QÜRBƏT ZÖHRƏSİ"NDƏ DÜŞÜNCƏ DÜYÜNLƏRİ

## 1. Əzablar başlanan yerdə

Hər bir yazıçının yaradıcılıq yolunda işarələnmiş izlər olur ki, özündən sonrakı tədqiqatçılar, yazıçının yaradıcılığına pərəstiş edən oxucular həmin işarələrlə hərəkət edir, yazıçının mənəvi dünyasına daxil olurlar. Əgər belə demək mümkünsə, bu işarələr yaradıcılığın xronologiyasıdır. Yəni ardıcıllığın zaman baxımından düzülüşüdür.

Əsasən yaradıcılıq psixologiyası belədir ki, müəllif yaradıcılığa kiçik epizodlardan başlayır. Fikrini ifadə etmək üçün kiçik həcmli janrlarda qələmini sınayır, sözün janr baxımından məhdud imkanları ilə özünü tanıyandan, özünə inanandan sonra daha irihəcmli janrlara keçir.

Əslində Ulduz Qasım da yaradıcılığın bu sınanmış yolunu seçib. 50 il bundan əvvəlki oxucularının yaddaşında şagird-müxbir, sonra tələbə-jurnalist, daha sonra reportyor, ədəbi-tənqidi yazılar müəllifi kimi tanınıb. Onun bu tipli yazıları, yəni ilk qələm təcrübələrinin bir hissəsi - şeirləri, hekayələri, ədəbi-tənqidi yazıları, hətta bayatıları *"Mən aşiqəm Qarabağda"* adlı kitabında toplanıb. Biz bu kitab haqqında artıq kifayət qədər danışmışıq.

Ulduz daxili-mənəvi mühitindəki qaynarlığından qalxan hissləri, duyğuları nisbətən daha irihəcmli əsərində verə bilib. Bu da onun *"Tələbə gündəliyi"* əsərində V.Bəhmənlinin təbirincə desək, nostalji hisslər istiqamətində qələmə alıb. Ancaq bu əsərin də ikinci hissəsi ayrıca bir lirik sentimental povestdir. Bundan əvvəlki yazılarda gənc jurnalist Sitarənin taleyini, demək olar ki, bütün psixoloji durumlarda izlədik. Və təbiidir ki, bu yol bizi *"Qürbət Zöhrəsi"*nəcən gətirməliydi.

*"Qürbət Zöhrəsi"* Ulduz Qasımın ilk irihəcmli nəsr əsəridir. Əsər 2018-ci ildə nəşr olunub.

Doğrusu, Ulduz Qasım haqqında yazan və heç də çoxsaylı olmayan müəlliflər onun əsas qadın qəhrəmanlarını Azərbaycan mənəvi mühitindən ayırmırlar. Təbiidir ki, biz də bu fikirdəyik. Ancaq *"Qürbət Zöhrəsi"* əsəri *"Tələbə gündəliyi"*ndən sonra ikinci dəfə mənim yaddaşımda böyük türk yazarı Rəşad Nuri Güntəkinin məşhur *"Çalıquşu"* romanının qəhrəmanı Fəridəni və qismən də, *"Dodaqdan qəlbə"* romanının qəhrəmanı Lamiyə - xınalı yapıncığını canlandırdı.

Rəşad Nuri Güntəkinlə Ulduz Qasımı yaxınlaşdıran və ayıran məqamlar çoxdur. Ancaq yaxınlaşdıran məqamla bağlı incə bir mətləbi diqqətə çəkmək olar. Hər iki müəllifin qadın qəhrəmanları, demək olar ki, həyat uğrunda mübarizədə yalnız özlərinə güvənclidirlər. Hər iki müəllifin qadın qəhrəmanları ən gərgin anlarda köməksizdirlər və onlar demək olar ki, cəmiyyətdən heç bir yardım ala bilmirlər.

Əslində yazıçı insan taleyi ilə bağlı belə məqamları ona görə diqqətə çəkir ki, cəmiyyət vacib olan məqamda öz insanını gərək tənha buraxmasın. Əlbəttə, ayrı-ayrı yaxşı adamlar tapıla bilər. Ayrı-ayrı məqamlarda bu yaxşı adamların müəyyən səviyyədə kömәkləri də ola bilər. Ancaq hər iki yazarın qadın qəhrəmanları cəmiyyətin bu cüzi yardımından faydalana bilmir. Həyat uğrunda mübarizədə məhv olmamaq üçün bütün mənəvi imkanlarını, güclərini səfərbər etməli olurlar.

*"Qürbət Zöhrəsi"* əsərinin qəhrəmanı Zöhrə də elə həyata gözünü açdığı ilk gündən daxili aləmi ilə başbaşa qalmalı olur. Ulduz Qasım həyatı yazan müəllifdir. Və bir çox cəhətlərinə görə də qəhrəmanları ilə özünün arasında sanki qan qohumluğu var. O, qəhrəmanlarına həmişə doğmalıqla yanaşır, əgər belə demək mümkünsə, onların boyunu sevə-sevə böyüdür. Çünki Ulduz Qasımın özü də həyat yollarını taleyinə yazılmış iztirablarla keçməli olub.

Ulduz Qasımı bir yazıçı kimi (və həm də bir ziyalı kimi) yaxından tanıyan Vaqif Bəhmənli onun haqqında yazır: *"O körpə çağlarından öz xarakteri, düşüncə tərzi ilə başqalarından seçilən, obrazlı deyilsə, bədii sözə "əsir düşən" istedadlı bir azərbaycanlı xanımdır. Ulduz Qasım canımız-ciyərimiz Bakı şəhərinin altun dövründə mükəmməl filoloji təhsil alıb (Azərbaycan Dövlət Universiteti, Jurnalistika fakültəsi). Ötən əsrin 80-ci illərindən mətbuatda ilk yazıları işıq üzü görüb. Sonra isə taleyin hökmü, ailə vəziyyətinin tələbi ilə Moskva şəhərinə köçüb. Başqalarından heç də geri qalmayan dolanışıqlı həyat düzəldib, oğul-qız böyüdüb, nənə adının şirinliyini dadıb. Aradan ötüb keçən 32 il müddətində Ulduz Qasım nə vətəni Azərbaycanı, nə də gəncliyin və tələbəliyin doğma yuvası Bakını, nə də dünyaya göz açdığı Cəbrayıl rayonunu bir an belə unutmayıb. Elə bir il olmayıb ki, yaranan ilk fürsətdə, hətta ildə 2-3 dəfə vətənə qədəm basmasın, doğmalarla görüşüb onların dərdinə-oduna yanmasın. Ulduz xanım dünyanın paytaxtı sayıla biləcək bir şəhərdə - Moskvada yaşasa da, vətənində qırılmaz əlaqə saxladığı insanlarla dostluqdan qürur duyur. Hərdən adama elə gəlir ki, o Azərbaycan türkünün yaxşısı bir yana, ortababı, fərsizi ilə də fəxr edir. Onun ailəsinin Moskvadakı 32 ildə bir neçə dəfə dəyişilən, bəzən ucqarda, bəzən mərkəzə yaxın, bəzən darısqal, bəzən geniş sahəli mənzilləri də heç bir fərq qoyulmadan bu ailəni soraqlayıb gələn hər bir azərbaycanlının üzünə taybatay açıq olub".* Bu qeydlərdə biz Ulduz Qasımı yazıçı olmağından çox insan kimi xarakterizə olunan cəhətlərini görürük. Həqiqətən də insan iztirablarının nə demək olduğunu bilməyən, ümumiyyətlə, *"mənəvi keyfiyyətləri etibarı ilə insan olmayan müəllif möhtəşəm insan obrazını yaratmağa qadir deyil"* fikrini mən də təsdiq edərdim, hərçənd ki, bu fikir özü də mübahisəlidir. Çünki faşistlərə xidmət etmiş, insanlara qarşı qəddar mövqe tutmuş adamların da sırasından yazıçılar var və onların orijinal qəhrəmanları oxucular tərəfindən sevilir. Və demək olar ki, heç bir oxucu sevilən qəhrəmanları yaradan müəllifin kimliyi haqqında maraqlanmır.

Ulduz Qasım təbiət etibarı ilə özünün daxili-mənəvi mühitinin sərhədlərini bütün çıxılmazlıqlarda, hətta əks qüvvələrin birləşmiş hücumlarına məruz qalanda belə qoruya bilir. Onun daxili dünyası yazıçı mükəmməlliyi ilə birləşərək öz gücünü indiki kifayət qədər həyat yolu keçmiş zamanınacan qoruyub-saxlayıb: *"Görünür təbiətindəki yenilməz milli qürur hissi, yurda, dilə, valideynlərə, adət-ənənələrə, İslam inancına, vətənin torpağına, daşına, Azərbaycan üzərinə əbədi çadır quran ümidləri heç zaman üzülməyən müqəddəs göy üzünə bağlılıq Ulduz xanımın yazıçı yaddaşını hifz edib qoruyan, ona "Qürbət Zöhrəsi" kimi bir romanı yazdıran səbəblərdir. Əslində bu səbəblərin bircə adı var: insanın özünə sadiqliyi, yaddaşına ehtiramı".* Zənnimizcə, Vaqif Bəhmənlinin bu sözləri də yerindədir. Çünki yazıçının mənəvi boy artımını kifayət qədər müşahidə edib. O, təbiət etibarı ilə zəngin bir insan olduğu üçün hissləri və duyğuları ilə insanlığın ən zərif hisslərinin daşıyıcısı olan Zöhrəni məhz bu səbəbdən yarada bilərdi.

Əslinə qalsa, Zöhrənin təbiətinin formalaşma qaynağını nə qədər cəmiyyətlə bağlayırıqsa, bir o qədər də elə müəllifin özünün təbiəti ilə bağlamaq daha doğru olardı. Şair-publisist, əməkdar incəsənət xadimi Vaqif Bəhmənli *"Qürbət Zöhrəsi"* əsərinə yazdığı *"Ön söz"*ündə məhz müəllifin bir insan kimi həssaslığını təqdir edir və Zöhrənin də məhz onun təbiətindən doğmuş bir obraz olduğunu bildirir. Eyni zamanda onu da qeyd edir ki, Ulduz Qasımın Zöhrəsi Azərbaycan klassiklərinin yaratdığı qadın və ana obrazlarının dost-doğmaca varisidir: *"Ulduz Qasımın "Qürbət Zöhrəsi" romanının başlıca dəyəri bu "insannamənin" yüksək bədii-estetik mahiyyətə malik olması ilə əlaqədardır. Yəni romandakı hadisələr yalnız həyatda baş vermiş olayların xronoloji qeydiyyatı deyil. İlk növbədə istedadlı qələmin gücünə meydana qoyulan bədii məhsuldur. Təcrübə göstərir ki, yaradıcılıqda məhz bu təbii, ilkin başlanğıc əsasdır. İnsan xarakterini həssas, təsirli bir üslubla təsvir etmək qabiliyyəti Ulduz Qasıma necə ki, bu romanı yazmaq səlahiyyəti verir, elə eyni səbəb yazıçıya "Qürbət Zöhrəsi"ni çap etdirmək qazandırır. Əsər romanın şəriksiz qəhrəmanı Zöhərnin dilindən danışılır. Seçilən təhkiyə forması, obrazların xarakterik xüsusiyyətləri, ümumən romanın abuhavası, Ulduz Qasımın ədəbi zövqü, onun mənsub olduğu ədəbi məktəbləri də aşkarlayır. Qısaca deyilə bilər ki, Ulduzun Zöhrəsi öz dərin və yaddaqalan cizgiləri ilə M.F.Axundzadə, N.B.Vəzirov, Ə.B.Haqverdiyev, C.Məmmədquluzadədən tutmuş, ötən əsrin 30-80-ci illəri arasında yazıb-yaradan nasir və dramaturqların canlandırdıqları qadın obrazlarının ana bətnindən gələn bütün irsi xüsusiyyətlərini daha dəqiq məhz azərbaycanlı qadının təbiətini ehtiva edir".* Vaqif Bəhmənli qeydlərini davam etdirərək Ulduz Qasım obrazına ayrı-ayrı mütəxəssis oxucuların da sərrast yanaşmalarını yada salır. Xüsusilə, həm Zöhrə obrazının, həm də *"Qürbət Zöhrəsi"* əsərinin səmimiyyət və etiraf dərinliyinə görə nadir nümunələrdən olduğunu deyənlərin rəyləri ilə razılaşdığını gizlətmir.




Hər bir oxucu üçün Zöhrənin düşdüyü psixoloji çıxılmazlıqlar, başqa sözlə, Zöhrənin faciəsi təəssüf doğuran haldır. Bəs Zöhrəni bu faciələrə düçar edən səbəblər hansılardır? O hansı səbəblər üzündən iztirablı həyat yaşamalı olur? Romana *"Ön söz"*-də ifadə olunmuş düşüncələri bir qədər improvizə edərək səbəbləri belə göstərmək olar; bunun bir səbəbi cəmiyyətdəki qeyri-insani keyfiyyətlərlə silahlanmış insancığazlardırsa, digər səbəbi də elə Zöhrənin özünün təbiət etibarı ilə müti bir insan olmasıdır.

Görünür, hər bir yazıçı üçün cəmiyyəti ideal insan yaratmağa yönəltmək, səfərbər etmək həmişə ideal olaraq qalacaq və Ulduz Qasım üçün də əslində belə bir ideal onun həm *"Qürbət Zöhrəsi"*, həm də digər əsərlərində əsas amal olaraq qalır. Əsərin ayrı-ayrı qəhrəmanlarının həyat yolu ən müxtəlif zamanlarda Zöhrə ilə bağlanır. Əlbəttə, Zöhrənin işığı gurdur, kifayət qədər nurludur, bu işıqdan başqalarının da qəlbinə pay düşə bilər. O başqa məsələdir ki, kim bu işıqdan nə dərəcədə faydalanır.

Romanı bir çox cəhətlərinə görə psixoloji dəqiqliklə izləmiş Vaqif Bəhmənlinin qeydlərinin davamı da maraqlıdır: *"Qəribə bir paradoks yaranır: Romanda ən kəskin tənqidə layiq insan nə Vüqar, nə qaynana, nə baldız, nə də Zöhrənin ilk məhəbbətini oğurlayıb qaçan o tələbə oğlandır. Məhz bizim əzabkeş, qərib, qəribə Zöhrədir. Onun iztirablarının mənşəyi ailə-məişət mahiyyətlidir. Lakin hadisələrin təbii təsviri, psixoloji yaşantıların ümumiləşdirmə dairəsi elə vəziyyətdədir ki, sadə, lokal insan yaşantıları dünyəvi miqyas qazanır. Oxucuya elə gəlir ki, Zöhrəni yalnız və yalnız onun möhkəm inandığı Allah xilas edə bilər. Və onun möhkəm inandığı Allah bunu edir. O sanki xilas olunmuşdur. Balaları ilə baş-başa, qulağı dinc həyatın bir addımlığındadır. Lakin Zöhrə öyrəşdiyi zəncirlərdən azad olmağı istəmir. Ömür boyu ona işgəncələr yaşatmış Vüqarın ölüm yatağına düşməyi qadının yeni, daha şiddətli işgəncəsinə çevrilir. Əlbəttə, yığcam bir giriş sözündə bütün romanın məzmununu danışmaq yolverilməzdir. ..."Qürbət Zöhrəsi" romanı əldən yerə qoyulmadan sürətlə oxunan əsərdir. Bu roman həm də əldən-ələ keçib oxunmaq, şöhrət qazanmaq şansı olan əsərdir. Romanın ifrat dərəcədə zəif, gücsüz xarakterli baş qəhrəmanı Zöhrənin gücü orasındadır ki, onun kimi ləyaqətinə, abrına qısılıb qadın və ana borcunu yerinə yetirmək istəyən insanlar yüz minlərlədir, istər qürbətdə, istərsə də vətənin içində..."*. Beləcə, Azərbaycan ədəbiyyatının (və həm də dünya ədəbiyyatının) bir çox incəliklərinə dərindən bələd olan Vaqif Bəhmənli birbaşa deməsə də, əslində sözünü belə bir məntiqlə yekunlaşdırır ki, Zöhrə təkcə bizim mühitin faciə daşıyıcısı deyil, həm də elə dünya insanının faciə daşıyıcısıdır. Onun təbiəti bir çox cəzbedici tərəfi ilə oxucunu özünə tərəf çəkir. İnsanı başa düşən, yaxud insanlığı uca tutan hər hansı bir şəxs Zöhrə ilə mənəvi qohumluğunu görür və Zöhrənin iztirablarını, ağrılarını özü də yaşamalı olur.

Əslində Ulduz Qasım Zöhrə obrazı ilə həyatın davamını təmin etməli olan qadınlara kifayət qədər xəbərdarlıq işarələri göndərir. Onlara çatdırır ki, həyatı yaşamağın özünəxas çətinlikləri var. Bu çətinliklər insanı təbiətən əzən sərt həyat tələbləri var. Bu sərt həyat tələbləri heç də Zöhrə ilə qurtarmır.

# III. "QÜRBƏT ZÖHRƏSİ"NDƏ DÜŞÜNCƏ DÜYÜNLƏRİ

**İmtahan həyəcanları**

Cek Londonun *"Martin İden"*ində Rufa, Eliza Ojeşkonun *"Avam"*ının baş qəhrəmanı, Jorj Sandın *"İndiana"*sının əsas obrazı, Tolstoyun *"Hərb və sülh"* romanının Nataşası, *"Anna Karenina"*, *"Dirilmə"* əsərlərinin məşhur qadınları, Rəşad Nuri Güntəkinin sevgili, zərif məxluqları, Anarın *"Beşmərtəbəli evin altıncı mərtəbəsi"*-nin əsas sakini Təhminəsi, Süleyman Rəhimovun *"Şamo"*sunun Gülsənəmi, İlyas Əfəndiyevin bir çox qadın qəhrəmanları... bu siyahını çox uzatmaq olar. Dünya ədəbiyyatındakı qadın qalereyasının maraqlı obrazları qadın təbiətinin ən müxtəlif, ən gizlində olan tərəflərinə işıq salır. Biz bu əsərlərdən hər hansı birinin qadın obrazını oxuyarkən elə düşünürük ki, artıq qadını tanıdıq. Ancaq digərinə keçən kimi məlum olur ki, biz fərdi olaraq bir qadını tanımışıq. Axı hər qadın özü ayrılıqda bir dünyadır.

Ulduz Qasımın *"Qürbət Zöhrəsi"* əsərinin baş qəhrəmanı Zöhrə də qadın qalereyasında özünəxas yer tutan, qadın qürurunu daxilində gəzdirən və ən çətin məqamda belə əzablara, iztirablara boyun əysə də, daxili-mənəvi mühitindəki gizlində qorunan qüruru ilə fəxarət duyan Zöhrə oxucularının gözlərinin içinə bütün aydınlığı ilə baxa bilən, mühitə işıq saça bilən bir obrazdır.

Zöhrə təbiət etibarı ilə artıq qeyd etdiyimiz kimi üsyankar deyil. Hətta həyatda baş verən hadisələrin hamısını mistik bir qənaətlə bağlayır. O belə fikirləşir ki, insan övladının başına nə gəlirsə, hamısı qəzanın, qədərin işidir: *"Kim deyirsə qədərdən qaçmaq olar, inanmayın! Heç zaman inanmayın... Qədər sizi istədiyi yerə götürür, istədiyi kimi əlində oyuncaq edir. İstədiyi kimi oynadır, ağladır, güldürür. İstədiyi zaman sizi dünyanın o başına götürür, istədiyi zaman qayadan-qayaya çırpır, istədiyi zaman dənizin ortasından gəmisiz, qayıqsız çəkib çıxarır. Lap Həzrəti Yunusu balığın qarnında hifz edib dəryadan xilas etdiyi kimi. Ya da böyük, dünyada ən nəhəng gəmidə batırıb sulara qərq edər, iziniz-tozunuz belə tapılmaz. Desələr ki, mən belə etməzdim, insana ağıl nədən ötrü verilib? Niyə görə-görə insan özünü odaközə atır? İnanmayın. "İnsanın qədəri öz əlindədir" deyənlərə inanmayın! Çünki qədəri siz yazmırsınız. Qədəri yazan var"*. Zənnimizcə, Zöhrə bu düşüncələrində o qədər də doğru deyil. Çünki Zöhrə əsas məsələni unudur. O bilməli idi ki, insan həyatında qəzaqədər təsadüflərlə bağlı rol oynaya bilər, qalanını insanın dünyagörüşü, əməli yaradır. Zöhrə kənd mühitində doğulub-böyüyüb. Özü də kifayət qədər kənddə, el-obada, bir rayonun mühitində sözü keçən bir kişinin qızıdır.

Onu elə böyüdüblər ki, insanlıq üçün yararlı olan nə varsa - bütün üstün dəyərləri o, qanun kimi qəbul edir və varlığına yazır.

Ulduz Qasım Zöhrəni nə qədər parlaq və aydın cizgilərlə göstərsə də, onun ətrafında olanları da unutmur. İstər Nərgiz olsun, istər Nərmin olsun, Lalə, yaxud Maral... Biz aydın səmada gecələr göyə baxarkən çoxlu ulduzlar görürük. Əlbəttə, onların arasında parlaqları da var, solğun işıqla görünənləri də. Sanki səmanın harmoniyasını nə qədər parlaq ulduz təyin edirsə, bir o qədər də bu harmoniya o zəif ulduzlardan asılıdır.

Bir çox cəhətlərinə görə *"Qürbət Zöhrəsi"* əsəri *"Tələbə gündəliyi"* sentimental, lirik povestin davamı kimi göründü mənə. Əlbəttə, bunlar ayrı-ayrı müstəqil əsərlərdir. Görünür, yazıçı Sitarə obrazı ilə özünün mənəvi mühitinə yığdığı həyat materialını tam ehtiva etdiyini bilmədiyini düşündüyündən daha parlaq Zöhrəyə üz tutmalı olub.

Müəllif əsərinin xeyli hissəsini tələbəlik həyatının ilk günlərinə həsr edib. Sanki o bu mərhələdən istifadə edərək gənc qızların formalaşması üçün mühit yaradır. Onları həyatla üzbəüz dayanmağa, həyatın çətinlikləri ilə qarşılaşmağa hazırlayır.

Gənclər üçün ən böyük problem imtahandan keçməkdir. Zənnimcə, Ulduz Qasım auditoriyalardakı imtahan mərhələlərini dəqiqliklə, təsadüfən təsvir etmir. Qulu Xəlilov, Şirməmməd Hüseynov kimi müəllimlərin qarşısında hazırlığını göstərmək, biliyinin haqqını almaq gücünün nə demək olduğunu ayrı-ayrı situasiyalarla göstərir. Zənnimcə, Qulu Xəlilovun, Şirməmməd Hüseynovun obraz olaraq əsərə daxil edilməsi də təsadüfi deyil. Bu müəllimlər o dövr üçün obyektivlik etalonu idi. Onlar bəzən sərt görünən təbiətləri ilə sanki ağ və qara arasında sərhəd olduğunu göstərirdilər. Ulduz Qasımın Zöhrəsi bu müəllimlərin imtahanından bacarıqla keçir. Nə qədər həyəcanlar olsa da, Zöhrə öz zəhmətinin, qazandığı biliyin haqqını bu müəllimlərdən ala bilir.

Amma Zöhrənin ağlına da gəlmir ki, onu başqa bir imtahan da gözləyir. Bu imtahanın adı sevgi ilə bağlı olsa da, böyük həyat imtahanıdır.

İki imtahanın müqayisəsi üçün kifayət qədər oxucu üçün düşüncə meydanı var. Belə bir məqamda o Xalid adlı bir gənclə təsadüfən tanış olur. Şəhərdən kəndə gedəndə iki tələbənin qarşılaşması yeni psixoloji mühit üçün əsas olur. Xalid yuxarı kurs tələbəsidir, başqa institutda oxuyur. Zöhrə isə hələ birinci kursdadır. Xalid kifayət qədər təcrübəli təsir bağışlayır. Zöhrə üçün isə bir çox məsələlər hələ dumanlıdır. Zöhrənin düşüncələri kimi qələmə alınmış əsər Xalidin meydana çıxması ilə yeni axara düşür: *"Tələbəliyimin ən maraqlı günlərindən biri də Xalidlə tanış olmağım idi. Onunla qatarda tanış olmuşduq. Stansiyada düşəndə, mənə kömək etmişdi. İlk dəfə kəndə tək gəlirdim. O olmasaydı, stansiyada enə bilməyəcəkdim və iki daşın arasında haradan olduğumu, haradan gəldiyimi soruşdu, mən də cavab verdim. Ötəri bir yolçu kimi. Soruşdu mən də etika xatirinə cavab verdim. Elə bilirdim, bəlkə bir də bir-birimizi görməyəcəyik. Sözün düzü, tətildə heç bu haqda fikirləşmədim. Epizodik bir neçə dəfə ağlıma gəldi, yenə unutdum. İkinci semestrə elə qayğı ilə başlamışdım ki, gözümü açmağa zamanım yoxdu. Evdən dərsə, dərsdən kitabxanalara. Günün necə keçdiyinin fərqində deyildim. Hərdən mənə elə gəlirdi ki, kimsə məni izləyir. Hərdən tanış sifət görürəm, sonra da özüm-özümə gülürdüm: "niyə axı məni izləsinlər? Cani zadam?... Deyəsən, o qədər əsərlər oxuyuram ki, həyatla yazılanları qarışdırıram...". Fevral ayının sonları idi. Bir gün "Lenin" adına kitabxanadan qayıdırdım. Azərbaycan və rus ədəbiyyatına aid kitablar götürmüşdüm. Güclə daşıyırdım. Kiminsə paketimdən tutduğunu hiss etdim"*. Zöhrənin həyatında baş verən hadisələr, əslində, onun ömür yolunda müəyyən mərhələlər yaradır. Xalidə olan sevgi hissləri onun həyatının sakit axarını pozur. Bundan sonra biz Zöhrənin necə narahat günlər yaşadığını ilk həyat imtahanı ilə üz-üzə gələndə yaşadığı həyəcanları auditoriya içərisindəki imtahan həyəcanları ilə müqayisə edə bilmərik. Sevgi həyəcanları başqadır. Bu həyəcanlar gənc qızın iqtidarına hakim olur. Onun hisslərini yalnız bir məcraya yönəldir.

Psixoloji gərginlik daim Zöhrəni izləyir. Hətta elmi, oxumağı əqidəli şəkildə qəbul etmiş Zöhrənin az qala kitab da, elm də, dəftər də - hamısı yadından çıxacaq bir vəziyyət yaranır.

Əlbəttə, Zöhrə yetkin mənəvi mühiti olan bir ailənin övladıdır. Başqaları dara düşəndə, çətinə düşəndə onun atasının yanına məsləhətə gəlir. Ondan kömək umurlar.

Zöhrə həyat romanı yazdığından yeri gəldikcə ailə mühitini də özündə ehtiva edən epizodları da yazıya gətirir. Hətta kənddə, ailədə, atasının-anasının yanında olanda belə Zöhrə narahat düşüncələrdən xilas ola bilmir. Anası da onun hansısa bir fikir ümmanında dalğalar arasına düşdüyünü hiss edir. Görünür, ana qəlbinin həssaslığı Zöhrəni kifayət qədər duyur, anlayır. Amma ata təmkinlidir. Zöhrənin düşüncələrindən öyrənirik ki, ata qızına görə narahat olan ananı da təmkinə yönəldir. Ona təlqin edir ki, işin olmasın, o uşaq deyil. Yəqin ki, özü haqqında kifayət qədər düşünə bilər.

Kolxoz sədri İbrahimin diqqəti evindən kəm olmasa da, o hər halda camaatın da qayğısını çəkir. Zöhrə atasının kimliyini tanıtmaq üçün iki epizodu elə kənddə şahidi olduğu əhvalat kimi xatırladır: *"Bir gün gecə yarıdan keçmişdi. Kimsə darvazanı döyürdü.*

*-İbrahim dayı, ay İbrahim dayı.*

*Atam geyinib çölə çıxdı:*

*-Kimdir, ay bala, kimsən?*

*-Mənəm, İbrahim dayı. Nadirin oğlu Mənsim.*

*-Nə istəyirsən, ay uşaq, gecənin bu saatında.*

*-Vallah, tay ayıbdan keçib. Deyəcəm.*

*-De, ay bala. Ürəyimi üzmə. Nə baş verib?*

*-Ay sədr, pul bölməyiblər. Bilirsiniz, deyirlər pambıq yığımından sonra verəcəklər. Sizdən də ayıb olmasın, arvadımın ağrısı tutub. Rayon mərkəzinə aparmalıyam. Bizim mamaça deyir mərkəzə aparın. Vallah pulumuz da yoxdur. Bəlkə orada lazım oldu.*

*-Burada ayıblıq nə var ki? Qoy görüm evdə pul varsa, Sona versin.*

*Sonra içəri keçdi:*

*-Sona, evdə pul var?*

*-Qoy bir baxım, ay İbrahim.*

*Qapının arxasından bütün danışıqları eşitdirim. Atam öz-özünə gileylənirdi:*

*- Əşşi, vaxtında pul vermirlər ki, insanların haqqını verəsən. Bu da işdir? Xalqın arvadı doğacaq, həkimə aparmağa pulu yoxdur. Bilmirsən, necə dərdini anladasan bunlara.*

*Sonra anamın səsini eşitdim:*

*- A kişi, evdə 15 manat pul var.*

*- Nə varsa, verim getsin. Belə şeylər gözləmir.*

*Atam anamdan pulu alıb tələsik qapıda duran Mənsimə yaxınlaşdı.*

*- Al, vallah bala, evdə olanımız elə budur. Hə, de görüm, nəylə gedirsiniz?*

*- Sağ ol, ay sədr. Görüm qonum-qonşuda kimi tapıram?*

*-Yox, yox. Sən qonum-qonşu gəzənə qədər arvadın doğar. Sən özün maşın sürməyi bacarırsan. Götür mənim maşınımı yoldaşını çatdır həkimə. Belə şeylə zarafat olmaz. Gecə olmasaydı, səni maşınların biri ilə göndərərdim. Amma bu gec olar. Götür maşını, yoldaşını çatdır mərkəzə. İnşallah burada böyük bir xəstəxana açacam. Belə olmaz. Yaxşı ki, hələ rayon mərkəzinə yaxınıq.*

*- Allah canınızı sağ eləsin. Siz olmasaydınız, bu kənd camaatı nə edərdi?*

*Atam yenə anamı çağırdı:*

*-Sona, maşının açarını gətir, tez ol.*

*Anam tələsik servantdakı qabın içindən açarları götürüb çölə çıxdı. Atamın yanında dayanan Mənsimə verdi.*

*-Al, ay uşaq.*

*-Uşaq nədi, ay Sona. Ata olacaq inşallah.*

*-İnşallah...*

*Atam Mənsimə tapşırıq verdi:*

*-Bax, ehtiyatlı ol ha, qaranlıqdır.*

*-Oldu, İbrahim dayı.*

*-Yolun açıq olsun!*

*Mənsim tələm-tələsik pulu və açarı cibinə qoyub aralandı. Atam yenə deyinməyə başladı:*

*-Vallah bu heç yaxşı iş deyil. Adam 15 manatdan ötəri gecənin bu saatında mənim qapıma gəlir.*

*-Sən neyləyəsən?*

*Səhəri gün eşitdik ki, Mənsimin oğlu olub.*

*Bundan bir neçə gün sonra yenə evdə oturmuşduq. Tormuz Fehruz gəldi. Oturub atamla xeyli söhbət etdi. Mən də çay gətirirdim. Sonra sözü dolandırıb mətləbə gəldi:*

*-Ay sədr, başına dönüm, bilirsən, uşaq nişanlıdı bir ildir. Pambığa başlamamış toylarını etmək istəyirik. İndi məzuniyyətə gəlib, on gündən sonra işinə dönməlidir. İş məsələsi olmasaydı, məhsul yığımından sonra edərdim toyunu. Amma gecikə bilməz.*

*-Allah mübarək etsin, ay Fehruz, elə toyunu.*

*-Vallah utanıram deməyə. Əldə-ovucda bir şey yoxdur. Yoxluğun üzü qara olsun. Uşağın bir az biriktirdiyi vardı, onu da qızıla verdik.*

*-Hə...*

*Atam alnını ovucladı. Çətin vəziyyətə düşmüşdü. Deməli, Tormuz Fehruz pula gəlmişdi. Sonra üzünü ona tutdu:*

*-Evdə bir quruşum yoxdur. Amma sabah idarəyə gəl. Kassirlə danışım, görüm nə var.*

*Fehruz tez ayağa qalxdı:*

*-Allah səni darda qoymasın, ay sədr. Tanrı balalarını xoşbəxt etsin. Ürəyimi dərd almışdı. Bilirsən, övlada yox demək olmur.*

*O gecədən sonra yenə atam gileylənməyə başladı:*

*-Belə iş olar? Vaxtında kolxozun pulunu vermirlər ki, insanlar öz ehtiyaclarını qarşılasınlar. Hələ neçə dəfə iclasda raykoma demişəm bunu. Deyir ki, demoqoqluq edirsən. Başqa sədrlər də var"*. Burada iki fərqli epizod olsa da, mahiyyət eynidir. Hər ikisində kolxoz sədri İbrahim kişinin kimliyini göstərən xarakterik cizgilər verilib. Onun mərdliyi, səxavəti, ehtiyacı olana yardımçı olmağı yüksək insani keyfiyyətlərdir. Göründüyü kimi, Zöhrə gözlərinin qabağında baş verən əhvalatları dəqiq müşahidə edə bilir. Bu əhvalatları təhlil edir. Öz təhlilləri ilə kimin kim olduğuna diqqəti cəlb edə bilir.

Bir qədər üzdən düşünən oxucu üçün bu epizodlar əsərdə göydən düşmə kimi görünə bilər. Amma əslində müəllif bu epizodlarla həyatın hər cür sınağından çıxmış insanın yeni hadisələrə psixoloji cəhətdən necə hazır olduğunu üzə çıxarır.

***(Davamı 7-ci səhifədə)***

*(Əvvəli 6-cı səhifədə)*

Zöhrə üçün atası ideal kişidir. O, qarşılaşdığı hər hansı bir adamı məhz bu keyfiyyətdə görmək istəyir. Həyatda baş verən hadisələr bizim istəyimizlə bağlı deyil. Həyatın ümumi axarı ilə bağlıdır. Amma bu hadisələrdən biz necə yararlana bilərik? Yaxud bu hadisələrin həyatımıza mənfi təsirlərini necə zərərsizləşdirə bilərik - bu artıq özümüzdən asılıdır. Zöhrənin mühiti - həm ailə mühiti, həm də onu əhatə edən tələbə dostları, otaq yoldaşları, qızlarla bağlı olan mühit, sadə, mənəvi özülləri doğruluq, düzgünlük üzərində qurulmuş mühitdir. Belə bir mühitdə qol-qanad açan, öz hisslərinin, duyğularının səmasında pərvazlanmağa can atan bir qız üçün qarşılaşdığı yeni adamın kimliyini dərk etmək çətindir. Ona elə gəlir ki, hər kəs tanıdığı adamlar kimi səmimidir, mərddir. Məsələn, əmisi oğlu Məhəmmədlə Maral əhvalatı bu baxımdan xarakterikdir. Onlar bir-birini sevir, yanaşmaları da çox təbiidir. Zöhrə də daxili, mənəvi həyəcanlarına səbəb olmuş Xalidi elə Məhəmməd kimi görmək istəyərdi. Ancaq Xalid Məhəmməd kimi ola bilirmi? Bunu artıq əsərin yeni səhifələri göstərir.

Xalid Zöhrəni ardıcıl olaraq izləyir. Onun haqqında məlumat toplayır. Az vaxt içərisində Zöhrənin daxili aləminə girə bilir. Hətta ona elçi göndərəcəyini, onu sevdiyini təkidlə bildirir. Hətta Zöhrədən özünə qarşı laqeyid həqiqi mənasında gənc qəlbin haraylarına bənzəyir: *"Sən necə kiminsə var-dövlətinə, mövqeyinə sata bilərsən bu sevgini? Dediklərin düz idisə, əgər belə idisə niyə gəlirdin, niyə özünü mənə sevdirirdin? Bizə elçi göndərmək istədiyin bir anda necə başqasına nişanlana bilərsən?... Necə qarşındakı bir insanı bu qədər alçalda bilərsən? Heç sayarsan. Axı mən elə də aşağı bir ailədən, aşağı bir tayfadan deyiləm. Elə çirkin bir qıza da bənzəmirəm. Sənin qarşında heç zaman xoşagəlməyən hərəkətlər etməmişəm. Onların hamısı yaxşı yadımdadır. Danışdığımız hər sözü, hər cümləni, hər nöqtəni belə indi də xatırlayıram.*

*Bir də bütün insanları Allah eyni ölçüdə yaratmayıb... Yoxsa sənin öz qanunların var? Bilirsən, hər gün gözlədim səni. Bərabər addımladığımız o küçələrdən neçə min dəfə keçdim. Bəlkə səni görərəm deyə. Buna hansı mənanı verirsən ver, mən sənə acıyıram. Bir elin obanın insanı necə bir-birinə belə pislik edə bilər? Bilirsən, çox maraqlanıram, buna hansı donu geyindirərdin üz-üzə gəlsəydik? Hansı bəhanələri, hansı yalanları uydurardın? Sən bunu yaxşı bacarırsan vallah. Çünki yaxşı rol oynayırsan. Xalq artistlərinin oynamadığı bir rolu. Böyük ustasan. Amma onlardan seçilən böyük bir cəhətin var. Artistlər oynadıqları rolların bəziləri mənfi olsa da, özləri yaxşı insanlardır. Sənin oynamaq istədiyin rollar müsbət olsa da, özün elə deyirsən. Əksinə... Bilmirəm, mənim*



# III. "QÜRBƏT ZÖHRƏSİ"NDƏ DÜŞÜNCƏ DÜYÜNLƏRİ

olmadığı cavabını da alır. Zöhrə isə bir qədər təmkinli olmağı, tələsməməyi məsləhət görür. Və bununla da Xalid onun məhəbbət səhnəsindən Zöhrənin görə bilmədiyi hansısa bir kölgəliyə çəkilir. Bundan sonra biz Zöhrəni tənhalıqda görürük. O iztirab çəkir. Bütün varlığı ilə Xalidi düşündüyü halda onu tapa bilmir, onun haqqında məlumat almır.

Nəhayət, tənhalığın əzablarına dözmədiyi üçün əmisi oğlu Məhəmmədlə məsləhətləşir. Məhəmməd Xalidi tapmalı olur. Cavab isə... Bəli, məlum olur ki, Xalid Zöhrədən ona laqeyid olmadığı cavabını - əslində bu müsbət cavabdır - alandan sonra daha şirin həyat vəd edən başqa bir ünvan tapır. Məlum olur ki, o öz kurslarında onunla birgə oxuyan dekan qızına nişanlanıb. Bu, böyük həyat imtahanında Zöhrə üçün ağır zərbə idi. Zöhrənin təkidlərinə əsasən Məhəmməd Xalidi təqib etmək, onu cəzalandırmaq niyyətindən əl çəkməli olur. Beləliklə, Xalid törətdiyi mənəvi cinayət üçün taleyin ixtiyarına buraxılır. Amma Zöhrənin varlığına sancılmış və xəyanət xəncəri səviyyəsində olan zərbənin yarası uzun müddət sağalmır. Zöhrənin varlığı qarət edilmiş olur. Zöhrə öz varlığını qarət edilmiş kimi hiss edir. Onun ən gözəl hissləri sevgi nadanının xəyanəti ilə tapdalanır. Zöhrə daxili-mənəvi aləminin sarsıntıları ilə baş-başa qaldığı zamanda öz duyğularını yalnız özü ilə bölüşür. Bu zaman onun Xalidi ittiham edən monoloqu sözün *gözüm niyə bu qədər kor olub? Necə sezməmişəm yalanlarını? Mən nə qədər avam bir insanam, deyilmi? Səndən soruşacağım bir şey də var. Mənim "hə" sözümü alıb nə etmək fikrindəydin? İndiyə qədər qaranlıq qalıb bu düşüncə mənə. Bəlkə, elə buna görə içimdə bir şübhə vardı və məni çox düşündürürdü. İlk və son olan bu sevgidən sonra heç vaxt, heç kimi sevmədim. Sənə görə yox, sadəcə öz sevgimə görə. Qız olaraq oturub qalmadım. Bu ayrılığa yas tutmadım. Dəyməzdi buna, xeyir! Mən Allahın, peyğəmbərin qoyduğu qanunlardan çıxa bilməzdim. Ərə də getdim, övladlarım da oldu. Heç vaxt həyat yoldaşımın namusuna azacıq olsa, xələl gətirmədim. Onu həmişə hamıdan yuxarıda tutdum. Şərəfini qorudum. Adlı-sanlı bir adam olması üçün əlimdən gələni etdim. Və övladlarım da cəmiyyət üçün, el üçün xeyirli insanlar oldular. Məsələ bunda deyil...".* Görəsən, məsələ bəs nədədir? Bəli, sual şəklində qoyulmuş amma cavabı verilməyən həmin məsələ heç bir günahı olmayan bir sevgi mələyinin qəddarlıqla zillətə düçar edilməsidir.

"Qürbət Zöhrəsi" əsərinin birinci hissəsi, yəni əsərin qəhrəmanı Zöhrənin taleyi ilə bağlı xüsusi mərhələ başa çatır. Əslində Zöhrə Xalidi ittiham edən monoloqu ilə həyatının sonrakı dönəmi barədə də oxucunu təmin edəcək məlumat verir.

***2022***